AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

VƏTƏNDAŞLARIN ƏMƏK HÜQUQLARINI
MÜDAFİƏ LİQASI

# BMT İNSAN HÜQUQLARI ŞURASININ XÜSUSİ PROSEDURLARI VƏ PROSEDURLARDAN İSTİFADƏ QAYDALARI

**Bakı-2026**

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən həyata keçirlən “**Milli Maraqların beynəlxalq təşkilatların prosedurlarından istifadə etməklə müdafiəsi**” layihəsi çərçivəsində hazırlamışdı

**© Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi**
**© Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**

**Akronimlər**

**BMT-**Birləşmiş Millətlər Təşkilatı

**BMT İHAK-** Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı

**BMT İHŞ-**Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası

**BMT BA-**Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası

**XP-**Xüsusi Prosedurlar

**QHT**-Qeyri Hökumət Təşkilatı

**BQHT**-Beynəlxalq Qeyri Hökumət Təşkilatı

**Mündəricat**

**İcmal........................................................................................................................3**

**BMT İnsan Hüquqları Şurasının Xüsusi Prosedurları..............................................4**

**Azərbaycan QHT-lərinin əməkdaşlıq edə biləcəyi bəzi Xüsusi Məruzəçilər və işçi qrupları.........................................................................................................................5**

1.Özbaşına Həbslər üzrə İşçi Qrupu (Working Group on Arbitrary Detention)
2. Mədəni hüquqlar sahəsində xüsusi məruzəçi (Special Rapporteur in the field of cultural rights)
3. Əlilliyi olan şəxslərin hüquqları üzrə xüsusi məruzəçi (Special Rapporteur on the rights of persons with disabilities)
4. Məcburi və ya Özbaşına Yoxaçıxmalar üzrə İşçi Qrup (Working Group on Enforced or Involuntary Disappearances)
5. Məhkəmədənkənar və ya özbaşına edamlar üzrə Xüsusi Məruzəçi (Special Rapporteur on extrajudicial, summary or arbitrary executions)
6. Din və ya etiqad azadlığı üzrə xüsusi məruzəçi (Special Rapporteur on freedom of religion or belief)
7.İqlim Dəyişikliyi üzrə Xüsusi Məruzəçi (Special Rapporteur on Climate Change)

## İcmal

Birləşmiş Millətlər Təşkilatı (BMT) sistemində insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində bilavasitə fəaliyyət göstərən, yaxud fəaliyyətinin bu və ya digər istiqaməti insan hüquq və azadlıqları ilə bağlı olan qurumları əsasən iki qrupa bölmək olar. Bunlar: BMT-nin nizamnaməsinə əsasən yaradılan insan hüquq və azadlıqları üzrə mexanizmlər- **nizamnamə orqanları (**charter-based bodies)  və BMT-nin himayəsi altında qəbul olunmuş və üzv dövlətlrin qoşulduğu beynəlxalq razılaşmalar üzrə mexanizmlər-**müqavilə orqanları (**treaty-based bodies)[1]**.**




***BMT İHAK ofisi tərəfindən hazırlanmış təlim modulundan götürülüb.**

Təqdim olunan bu yaddaşda nizamnamə mexanizmlərindən olan **BMT İnsan Hüquqları Şurasının (BMT İHŞ) Xüsusi prosedurlardan[2] (BMT İHŞ XP)** bəhs olunur.

2006-cı ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 3 aprel 2006-cı il tarixli 60/251 saylı qətnamə ilə 1945-ci ildən fəaliyyət göstərən BMT **İnsan Hüquqları Komissiyasının** əsasında  **İnsan Hüquqları Şurasını** yaratdı. Şura da öz növbəsində 13 noyabr 2006-cı il tarixli 1/102 saylı qərarı ilə keçmiş İnsan Hüquqları Komissiyasının bütün mandatlarını öz üzərinə götürmək qərarı verdi.

Son illərdə Azərbaycanda fəaliyyət göstərən ixtisaslaşmış qeyri-hökumət təşkilatları beynəlxalq mexanizmlərdən daha geniş istifadə etməyə başlamışdır. İxtisaslaşmış QHT-lərin nümayəndləri BMT-nin müqavilə orqanlarına dövlətlərin dövrü hesabatlarına alternativ hesabatlar təqdim edir, BMT-nin İnsan Hüquqları Şurasının dövrü sessiyalarına qatılır, müxtəlif hesabatlar hazırlayaraq təqdim edilər. Bununla belə BMT İnsan Hüquqları Şurasının xüsusi prosedurları ilə əməkdaşlıq göstəriciləri o qədər də yüksək deyildir. BMT İHŞ Xüsusi Prosedurlarının bir çoxu ilə əməkdalığın vacibliyini

---

[1] https://www.ohchr.org/en/instruments-and-mechanisms
[2] https://www.ohchr.org/en/special-procedures-human-rights-council

nəzərə alaraq bu yaddaşda onların bir qismi haqqında qısa icmal, həmçinin müraciət qaydalarına dair qısa məlumatlar təqdim olunur.

## BMT İnsan Hüquqları Şurasının Xüsusi Prosedurları

Ümumi adı "Xüsusi Prosedurlar" olan, İnsan Hüquqları Komissiyası tərəfindən yaradılmış və sonradan İnsan Hüquqları Şurası tərəfindən də qəbul olunmuş, konkret ölkədəki şərait və ya mövzular üzrə bütün dünyada insan hüquqlarının vəziyyəti üzrə hesabat hazırlamaq, məsləhət vermək mandatına malik olan və İnsan Hüquqları Şurasına məruzələr hazırlayan prosedurlardır. 2026-cı ilin iyun ayının əvvəlinə qədər BMT İnsan Hüquqları Şurasının **46 tematik**[3] və **13 ölkə mandatı**[4] fəaliyyət göstərir.

Xüsusi Prosedurlar sistemi Birləşmiş Millətlər Təşkilatının insan hüquqları mexanizminin mərkəzi elementidir və bütün insan hüquqlarını - **mülki, mədəni, iqtisadi, siyasi** və **sosial** hüquqlarını əhatə edir. Xüsusi prosedurların mandatına aşağıdakılar daxildir:

♦ Müxtəlif xüsusi insan hüquqları məsələlərini və yaxud müxtəlif ölkələrdə insan hüquqları vəziyyətini **monitorinqini** həyata keçirirlər;

♦ İnsan hüquqlarına dair narahatlıq doğuran məsələləri **araşdırırlar;**

♦ Ölkələrə **səfərlər** təşkil edirlər;

♦ **Şikayətlər** qəbul edir və onlara baxırlar;

♦ Hökumətlərə **müraciətlər** edirlər;

♦ İnsan hüquqları ilə bağlı fövqəladə hallara **reaksiya** verirlər;

♦ İnsan Hüquqları Şurasına **hesabatlar təqdim edirlər"**

**Qeyd:** Xüsusi məruzəçilər və işçi qrup üzvləri **ödənişsiz əsaslarla** fəaliyyət göstərirlər.

### *Tematik mandat üzrə fəaliyyət göstərən xüsusi prosedurları aşağıdakı mövzular üzrə qruplaşdırmaq olar:*

♦ Təhlükəsiz, təmiz, sağlam və dayanıqlı ətraf mühit ilə bağlı insan hüquqları öhdəlikləri üzrə Xüsusi Məruzəçi

♦ İqlim dəyişikliyi üzrə Xüsusi Məruzəçi

♦ Mülki və siyasi hüquqlar üzrə müxtəlif Xüsusi Məruzəçilər (Məsələn, əsassız saxlanmalar, işgəncə, ifadə azadlığı və digər ayrı-ayrı mülki və siyasi hüquqlar üzrə Xüsusi Məruzəçilər).

♦ İqtisadi, sosial və mədəni hüquqlar üzrə müxtəlif Xüsusi Məruzəçilər (Məsələn, mədəni hüquqlar, qida, səhiyyə, təhsil, mənzil, su, və digər ayrı-ayrı sosial, iqtisadi və mədəni hüquqlar üzrə Xüsusi Məruzəçilər).

♦ Xüsusi qruplar üzrə Xüsusi Məruzəçilər (Məsələn, uşaqlar, məcburi köçkünlər, əlilliyi olan şəxslər, yerli əhali, qadınlar, miqrantlar və azlıqlar üzrə Xüsusi Məruzəçilər).

Azərbaycanda fəaliyyət göstərən ixtisaslaşmış QHT-lərin hər biri öz profili (fəaliyyət sahəsi) üzrə müvafiq Xüsusi Prosedurlarla əməkdaşlıq edə bilər. Bütün 46 tematik

[3] https://spinternet.ohchr.org/ViewAllCountryMandates.aspx?Type=TM
[4] https://spinternet.ohchr.org/ViewAllCountryMandates.aspx

prosedurun hamısı ilə əməkdaşlıq zəruri deyil. Aşağıda Azərbaycan QHT-lərinin əməkdaşlıq edə biləcəyi bəzi Xüsusi prosedurlara dair ümumiləşmiş məlumatlar verilir.

## Azərbaycan QHT-lərinin əməkdaşlıq edə biləcəyi bəzi Xüsusi Məruzəçilər və işçi qrupları

### 1.Özbaşına Həbslər üzrə İşçi Qrupu (Working Group on Arbitrary Detention)

**Özbaşına Həbslər üzrə İşçi Qrup**, 1991-ci ildə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyası tərəfindən özbaşına azadlıqdan məhrum etmə hallarını araşdırmaq üçün yaradılmışdı. Özbaşına Həbs üzrə İşçi Qrupun mandatı daha sonra İnsan Hüquqları Şurasının 15/18, 20/16 və 33/30 saylı qətnamələrində qeyd edilib. **İşçi Qrupunun mandatı ən son olaraq İnsan Hüquqları Şurasının 6 oktyabr 2025-ci il tarixli 60/8 saylı qətnaməsi ilə üç illik müddətə uzadılıb.**

#### *Özbaşına Həbslər üzrə İşçi Qrupun mandatı*

İşçi Qrupu, mandatına aid halları aydınlaşdırmaq və/və ya onların diqqətini cəlb etmək üçün aidiyyəti hökumətlərə təcili müraciətlər edir və kommunikasiya yaradaraq iddia edilən **özbaşına həbs** hallarını araşdırır. İşçi Qrupu həmçinin **fərdi şikayətləri** özünün müntəzəm kommunikasiya proseduru çərçivəsində nəzərdən keçirir və həbsin özbaşına və ya sanksiyalaşdırlmış olması ilə bağlı **rəy** qəbul edir. Bundan əlavə, İşçi Qrup ölkədə azadlıqdan məhrum etmə vəziyyətini qiymətləndirmək üçün **ölkə səfərləri** həyata keçirir.

İşçi qrupun mandatına həmçinin aşağıdakılar aiddir:

♦Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və ya müvafiq dövlətlər tərəfindən qəbul edilmiş müvafiq beynəlxalq hüquqi sənədlərdə müəyyən edilmiş müvafiq **beynəlxalq standartlara uyğun olmayan və ya başqa şəkildə ziddiyyət təşkil edən azadlıqdan məhrum etmə hallarını** araşdırmaq;

♦**Hökumətlərdən, beynəlxalq təşkilatlardan** və **qeyri-hökumət təşkilatlarından,** müvafiq şəxslərdən, qurbanların  ailələrindən və ya nümayəndələrindən məlumat almaq;

♦**İddia edilən özbaşına həbs halları** ilə bağlı diqqətinə təqdim edilən məlumatlar əsasında bu halları aydınlaşdırmaq və onların diqqətinə çatdırmaq üçün müvafiq hökumətlərə təcili müraciətlər etmək və kommunikasiya yaratmaq;

♦Ölkələrdə mövcud olan vəziyyəti, eləcə də **özbaşına azadlıqdan məhrum etmə hallarının əsas səbəblərini** daha yaxşı anlamaq üçün hökumətin dəvəti/razılığı ilə sahə missiyaları keçirmək;

♦Dövlətlərə **özbaşına azadlıqdan məhrum etmə praktikasının qarşısını almaqda və ondan qorunmaqda kömək etmək** və gələcək işlərə baxılmasını asanlaşdırmaq üçün ümumi xarakterli məsələlər üzrə müzakirələr aparmaq;

♦İnsan Hüquqları Şurasına öz fəaliyyətini, tapıntılarını, nəticələrini və tövsiyələrini təqdim edən **illik hesabat təqdim etmək**.

İşçi qru həmçinin:

♦İşçi Qrupunu öz mandatını effektiv icra etmək üçün ona təqdim edilən işlərlə bağlı bütün maraqlı tərəflərlə, xüsusən də zəruri diqqət yetirilməli olan məlumat verən dövlətlərlə əməkdaşlıq və dialoq aparır.

♦İşçi qrup İnsan Hüquqları Şurasının digər mexanizmləri, digər səlahiyyətli Birləşmiş Millətlər Təşkilatı orqanları və müqavilə qurumları ilə əlaqələndirilmiş şəkildə işləyir.

♦İşçi qrup həmçinin  Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının insan hüquqları ilə bağlı əlaqələndirmədəki rolunu nəzərə alır və bu mexanizmlərlə, xüsusən kommunikasiyalar və sahə missiyaları əlaqəli şəkildə fəaliyyət göstərir;

♦Öz vəzifəsini qərəzsiz, obyektivliklə və müstəqill şəkildə yerinə yetirir.

***Özbaşına Həbs üzrə İşçi Qrupun Şikayətlər və təcili müraciətlər proseduru***

İşçi Qrupu, mandatı fərdi şikayətlərin nəzərdən keçirilməsini açıq şəkildə nəzərdə tutan yeganə müqavilə əsaslı olmayan mexanizmdir. Bu o deməkdir ki, onun hərəkətləri dünyanın istənilən yerindəki fərdlərin ərizə vermək hüququna əsaslanır.

İşçi Qrupu, özbaşına həbs iddiaları ilə bağlı diqqətinə təqdim edilən məlumatlar əsasında, bu halları aydınlaşdırmaq və/və ya onların diqqətini cəlb etmək üçün müvafiq hökumətlərə təcili müraciətlər, eləcə də müntəzəm proseduru çərçivəsində kommunikasiyaya başlayır.

***Fərdi işlərin araşdırılması***

İşçi Qrup ona təqdim edilən məlumatlar əsasında faəliyyət göstərir. Özbaşına həbs iddiaları ilə bağlı məlumatları müvafiq şəxslər, qurbanların ailələri, nümayəndələri və ya insan hüquqlarının müdafiəsi üzrə qeyri-hökumət təşkilatları hökumətlər və beynəlxalq təşkilatlar təqdim edə bilər.

**Şikayət və razılıq formalarını aşağıda göstərilən Inkdən ingilis, fransız və ya ispan dilində endirmək olar:**

**Nümunəvi Anket: https://www.ohchr.org/en/special-procedures/wg-arbitrary-detention/complaints-and-urgent-appeals**

**Razılıq Forması: https://www.ohchr.org/en/special-procedures/wg-arbitrary-detention/complaints-and-urgent-appeals**

**E-poçt: hrc-wg-ad@un.org**

**Ünvan:**

**Özbaşına Həbs üzrə İşçi Qrup,
İnsan Hüquqları üzrə Ali Komissarın Ofisi,
Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki Ofisi,
8-14 Avenue de la Paix, 1211 Geneve 10, İsveçrə**

**Working Group on Arbitrary Detention,
Office of the High Commissioner for Human Rights,
United Nations Office at Geneva,**

**8-14 Avenue de la Paix, 1211 Geneve 10, Switzerland**

**İşçi qrup haqqıda daha geniş məlumat almaq üçün aşağıdakı linklərdə yerləşdilən vəsaitdən istidadə edə bilərsiz**

İngilisi dilində: https://www.ohchr.org/sites/default/files/documents/publications/Fact-sheet-26-WGAD.pdf

Rus dilində: https://www.ohchr.org/sites/default/files/2024-05/Fact-sheet-26-WGAD-ru.pdf

## 2. Mədəni hüquqlar sahəsində xüsusi məruzəçi (Special Rapporteur in the field of cultural rights)

"**Mədəni hüquqlar sahəsində xüsusi məruzəçi"**[5] mandatı 2009-cu ildə İnsan Hüquqları Şurasınn 10/23 saylı qətnaməsi ilə üç il müddətinə təsis olunmuşdur. İlk adı "mədəni hüquqlar sahəsində müstəqil ekspert qrupu" adlanırdı.
Bu mandat 2012-ci ildə 19/6 saylı qətnamə ilə; 2015-ci ildə 28/9 saylı qətnamə ilə və 2018-ci ildə 37/12 saylı qətnamə ilə, 2021-ci ildə 46/9 saylı qətnamə ilə və 2024-cü ildə 55/5 saylı qətnamə ilə daha üç il müddətinə uzadılıb.

**Ermənistan dövləti, Ermənistada fəaliyyət göstərən QHT-lər, erməni lobbisinin maraqlarına xidmət edən beynəlxalq QHT-lər bu mandatdan Azərbaycana qarşı geniş istifadə edirlər. Onlar xüsusi məruzəçiyı guya Azərbaycan tərəfindən erməni mədəni irsinin məhv edilməsi ilə bağlı hesabatlar təqdim edir.**

Xüsusi Məruzəçi hər il həm **İnsan Hüquqları Şurasına**, həm də **Baş Assambleyaya** hesabat verir.

***Xüsusi məruzəçinin mandatına aşağıdakılar daxildir:***

♦Yerli, milli, regional və beynəlxalq səviyyələrdə mədəni hüquqların təşviqi və qorunması ilə bağlı ən yaxşı təcrübələri müəyyən etmək;

♦Mədəni hüquqların təşviqi və qorunmasına mane olan amilləri müəyyən etmək və Şuraya onların aradan qaldırılması yolları ilə bağlı tövsiyələr təqdim etmək;

♦Mədəni hüquqların təşviqi və qorunması üçün yerli, milli, regional və beynəlxalq səviyyələrdə qərarların qəbul edilməsini təşviq etmək üçün dövlətlərlə işləmək və bu baxımdan bütün səviyyələrdə əməkdaşlığı gücləndirmək üçün konkret təkliflər vermək;

♦Mədəni hüquqların daha yaxşı təşviq edilməsi məqsədi ilə mədəni hüquqlar və mədəni müxtəliflik arasındakı əlaqəni öyrənmək üçün dövlətlər və **Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı** (UNESCO) kimi digər müvafiq subyektlərlə sıx əməkdaşlıq etmək;

♦ Fəaliyyətinə bu mandat üzrə gender və əlillik məsələlərini daxil etmək;

---

[5] https://www.ohchr.org/en/special-procedures/sr-cultural-rights

♦Müvafiq konfranslarda və tədbirlərdə iştirak etmək də daxil olmaqla, fəaliyyətini mümkün olan ən geniş maraq və təcrübə dairəsini təmsil edən **hökumətlərarası qurumlar və qeyri-hökumət təşkilatları**, digər xüsusi prosedurlar, **İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi**, **Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO)** və müvafiq subyektlərlə əlaqələndirmək.

**Xüsusi Məruzəçinin fəaliyyəti ilə bağlı daha geniş məlumatı aşağıdakı linkə keçid etməklə əldə edə bilərsiz:**

https://www.ohchr.org/sites/default/files/Documents/Issues/CulturalRights/Leaflet_SR_cultural_rights_en.pdf

**Əlaqə: hrc-sr-culturalrights@un.org**

**Məlumatın (hesabatın) hazırlanması və göndərilməsi üçün təlimatla aşağıdakı linkdə tanış ola bilərsiz:**

**https://spsubmission.ohchr.org/**

## 3. Əlilliyi olan şəxslərin hüquqları üzrə xüsusi məruzəçi (Special Rapporteur on the rights of persons with disabilities)

İnsan Hüquqları Şurası əlilliyi olan şəxslərin hüquqları ilə bağlı mandatı ilk dəfə 2014-cü ildə təsis etmişdir. Mandat 2023-cü ildə A/HRC/RES/53/14 qətnaməsi ilə yenilənmişdir.

**Əlilliyi Olan Şəxslərin Hüquqlarının Müdafiəsi Haqqında BMT Konvensiyasının nəzarət orqanı kimi fəaliyyət göstərən "Əlilliyi Olan Şəxslərin Hüquqlarının Müdafiəsi Komitəsi ayrı təsisatdır. Müqavilə orqanı olmaqla Komitə daha geniş səalahiyyətlərə malikdir. Haqqında bəhs olunan prosedur BMT nizamnaməsinə uyğun olaraq təsis edilib.**

**Əlilliyi olan şəxslərin hüquqları üzrə xüsusi məruzəçinin**[6] mandatına aşağıdakılar daxildir:

♦Əlilliyi olan şəxslərin hüquqlarının həyata keçirilməsi və onların cəmiyyətin bərabərhüquqlu üzvləri kimi iştirakı ilə bağlı yaxşı təcrübələrin müəyyən edilməsi, mübadiləsi və təşviqi üçün dövlətlər və digər maraqlı tərəflərlə müntəzəm dialoq qurmaq;

♦Əlilliyi olan şəxslərin hüquqlarının pozulması ilə bağlı məlumat almaq və kommunikasiya qurmaq və mübadilə etmək;

♦Əlilliyi olan şəxslər və onların təşkilatları ilə məsləhətləşmələr aparmaq və onların işinin aparılmasına iştiraklı şəkildə cəlb etmək;

♦Əlilliyi olan şəxslərin hüquqlarının daha yaxşı təşviqi və qorunması, o cümlədən əlilliyi olan şəxslər üçün inklüziv və əlçatan inkişafın təşviqi ilə bağlı konkret tövsiyələr vermək;

♦Əlilliyi olan şəxslərin hüquqlarının effektiv şəkildə həyata keçirilməsi üçün milli səyləri dəstəkləmək üçün məsləhət xidmətləri və texniki yardım göstərmək;

---

6 https://www.ohchr.org/en/special-procedures/sr-disability/mandate

♦Əlilliyi olan şəxslərin hüquqları barədə məlumatlılığı artırmaq, stiqma və stereotiplərlə mübarizə aparmaq və əlilliyi olan şəxsləri hüquqları barədə məlumatlandırmaq;

♦BMT-nin Əlilliyi İnklüzivləşdirmə Strategiyasının və BMT sisteminin məqsədəuyğunluğunu təmin etmək üçün digər səylərin həyata keçirilməsinə yaxından töhfə vermək;

♦Əlilliyi olan şəxslərin hüquqlarının ardıcıl şəkildə inkişaf etdirilməsi üçün digər BMT-nin insan hüquqları mexanizmləri və BMT qurumları ilə sıx əməkdaşlıq etmək;

♦Əlilliyi Olan Şəxslərin Hüquqlarının Müdafiəsi Haqqında Konvensiyanın nəzarət orqanı olan **Əlilliyi Olan Şəxslərin Hüquqlarının Müdafiəsi Komitəsi**[7] ilə əməkdaşlıq etmək üzv dövlətlərin Konfransı və Sosial İnkişaf Komissiyası ilə sıx əməkdaşlıq etmək və onların illik sessiyalarında iştirak etmək;

♦Mandat çərçivəsində gender perspektivini nəzərə almaq;

♦**İnsan Hüquqları Şurasına** və **Baş Assambleyaya** hər il hesabat vermək.

***Xüsusi Məruzəçi bu funksiyaları yerinə yetirərkən***:

♦Əlilliyi olan şəxslərin insan hüquqlarının iddia edilən pozuntuları ilə bağlı ona təqdim edilən məlumatlar əsasında müvafiq dövlətlərə **təcili müraciətlər** edir və kommunikasiya yaradaraq bu məlumatları aydınlaşdırmaq və/və ya onların diqqətinə çatdırmaqla hərəkət edir. **Bax:** Məlumatların təqdim edilməsi üçün təlimat: https://spsubmission.ohchr.org/

♦Hökumətin dəvəti ilə müəyyən bir ölkədə əlilliyi olan şəxslərin insan hüquqlarının qorunması vəziyyətini araşdırmaq üçün ölkə səfərləri həyata keçirir. Xüsusi Məruzəçi səfərin nəticələrini, nəticələrini və tövsiyələrini təqdim edərək İnsan Hüquqları Şurasına hesabat təqdim edir. Bax: Ölkə Səfərləri: https://www.ohchr.org/en/special-procedures/sr-disability/country-visits

♦Əlilliklə bağlı məsələlər və mövzu üzrə konfranslarda, seminarlarda və panellərdə iştirak edir, mətbuat açıqlamalar verir.

♦Əlilliyi olan şəxslərin qlobal müdafiə vəziyyəti, əsas narahatlıqları və əlilliyi olan şəxslərin hüquqları ilə bağlı müşahidə olunan yaxşı təcrübələr barədə hər il **İnsan Hüquqları Şurasına** və **Baş Assambleyaya** əlçatan formatlarda hesabat verir. Xüsusi Məruzəçi əlilliyi olan şəxslərin insan hüquqlarının qorunmasını gücləndirmək məqsədilə xüsusi tövsiyələr hazırlayır: https://www.ohchr.org/en/special-procedures/sr-disability/annual-thematic-reports

**İxtisaslaşmış QHT-lər məlumatlarını hazırlamaq üçün bu təlimatla tanış ola bilər:** https://spsubmission.ohchr.org/

**Məlumatları bu e-mailə göndərə bilərsiz**: hrc-sr-disability@un.org

## 4. Məcburi və ya Özbaşına Yoxaçıxmalar üzrə İşçi Qrup (Working Group on Enforced or Involuntary Disappearances)

**Məcburi və ya Özbaşına Yoxaçıxmalar üzrə İşçi Qrup (MQYİQ)** 1980-ci ildə İnsan Hüquqları Komissiyası (2006-cı ildən İnsan Hüquqları Şurası) tərəfindən yaradılmışdır.

[7] https://www.ohchr.org/en/treaty-bodies/crpd

Bu, İnsan Hüquqları Şurasının hazırda sayı 46 olan tematik **Xüsusi Prosedurlarından** biridir.
İşçi Qrupun tərkibi İnsan Hüquqları Şurası tərəfindən təyin edilmiş balanslaşdırılmış coğrafi təmsilçiliyə malik beş müstəqil ekspertdən ibarətdir.
İşçi Qrupun Katibliyi Cenevrədə yerləşir.
İşçi Qrupunun mandatını yeniləyən ən son qətnamə, A/HRC/RES/54/14, İnsan Hüquqları Şurası tərəfindən 2023-cü ilin oktyabr ayında qəbul edilmişdir.

**Məcburi və Özbaşına Yoxaçıxmalar Haqqında BMT Konvensiyasının nəzarət orqanı kimi fəaliyyət göstərən "Məcburi və Özbaşına Yoxaçıxmalar üzrə Komitə" ayrı təsisatdır. Müqavilə orqanı olmaqla Komitə daha geniş səalahiyyətlərə malikdir. Haqqında bəhs olunan prosedur BMT nizamnaməsinə uyğun olaraq təsis edilib.**

**Məcburi və ya Özbaşına Yoxaçıxmalar üzrə İşçi Qrupun**[8] mandatına aşağıdakılar daxildir:

♦İtkin düşmüş şəxslərin qohumları və ya onların adından fəaliyyət göstərən insan hüquqları təşkilatları tərəfindən təqdim edilən məcburi itkin düşmə halları barədə hesabatları alır, araşdırır və hökumətlərə ötürür;

♦Hökumətlərdən araşdırmalar aparmağı və nəticələr barədə İşçi Qrupuna məlumat verməyi xahiş edir;

♦Əldə edilən (təqdim edilən) məlumat və sorğuları vaxtaşırı olaraq izləyir;

♦**Bütün Şəxslərin Məcburi İtkin düşmədən Müdafiəsi haqqında Bəyannamənin**[9] həyata keçirilməsindəki maneələrin aradan qaldırılmasında dövlətlərə kömək etməklə profilaktik rol oynayır. Bu, həm ölkə səfərləri zamanı, həm də tələb olunduqda məsləhət xidmətləri göstərməklə həyata keçirilir.

**Qeyd:** Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından bildirilib ki, 01.01.2026-cı il tarixə olan məlumata əsasən, Komissiyada ümumilikdə 4004 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb.
İtkin düşənlərin 3998 nəfəri I Qarabağ müharibəsi, 6 nəfəri isə 2020-ci ildə baş vermiş 44 günlük II Qarabağ müharibəsi zamanı itkin düşüb.
İtkin düşmüş şəxslərdən 3223 nəfəri hərbçi, 781 nəfəri isə mülki şəxsdir.
Mülki şəxslər arasında 71 nəfər yetkinlik yaşına çatmamış uşaq, 287 nəfər qadın, 319 nəfər isə yaşlı şəxsdir.
Bu şəxslərin əksəriyyəti Ermənistan silahlı qüvvələri tərəfindən əsir və girov götürlmüş hərbiçilər və mülki şəxslərdir.

**Vətəndaş cəmiyyəti təşkilatları** İşçi Qrupunun mandatının effektiv fəaliyyətində mühüm rol oynayırlar. Onlar İşçi Qrupu və onun müxtəlif prosedurları barədə məlumatlılığı artıra bilərlər.
**Məcburi və özbaşına yoxa çıxarılmış şəxslərlə bağlı məlumatları işçi qrupunun aşağıda göstərilən e-mailinə göndərə bilərsiz:**

**ADDRESS TO SUBMIT A COMMUNICATION**

[8] https://www.ohchr.org/en/special-procedures/wg-disappearances
[9] https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/declaration-protection-all-persons-enforced-disappearance

E-mail: hrc-wg-eid@un.org
Post: Working Group on Enforced or Involuntary Disappearances
Office of the High Commissioner for Human Rights
Palais des Nations, 8-14 Avenue de la Paix
CH-1211 Geneva 10, Switzerland

**Məlumat hazırlamaq üçün formulyarı bu səhifədən endirmək olar:**

https://www.ohchr.org/en/special-procedures/wg-disappearances/reporting-disappearance-working-group

**İşçi Qupun madatı və fəaliyyəti haqqıda daha geniş məlumatı aşağıdakı linkdə yerləşdilən vəsaitdən əldə edə bilərsiz:**

https://www.oacnudh.org/wp-content/uploads/2022/09/WGEID-CED-InglesWEB.pdf

## 5. Məhkəmədənkənar və ya özbaşına edamlar üzrə Xüsusi Məruzəçi (Special Rapporteur on extrajudicial, summary or arbitrary executions)

**Məhkəmədənkənar, və ya özbaşına edamlar üzrə Xüsusi Məruzəçi**[10], Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası tərəfindən təyin edilmiş müstəqil insan hüquqları üzrə ekspertdir. **Xüsusi Məruzəçinin mandatı 1982-ci ildə təsis edilib** və dəfələrlə, ən sonuncu dəfə isə 2023-cü ilin iyun ayında yenilənib (İHK-nın 53/04 saylı qətnaməsi). Xüsusi Məruzəçinin mandatı, dövlətin müvafiq beynəlxalq Konvensiyaları ratifikasiya edib-etməməsindən asılı olmayaraq, bütün ölkələri əhatə edir.

**Məhkəmədənkənar, və ya özbaşına edamlar üzrə Xüsusi Məruzəçinin** mandatına aşağıdakılar daxildir:

♦Bütün hallarda və hər hansı bir səbəbdən məhkəmədənkənar, qısa müddətli və ya özbaşına edam hallarını araşdırmağa davam etmək və nəticələrini illik olaraq **İnsan Hüquqları Şurasına** və **Baş Assambleyaya** təqdim etmək və dərhal diqqət tələb edən və ya təcili və təxirəsalınmaz tədbirlərin görülməsini tələb edən hallara Şuranın diqqətini cəlb etmək;

♦Vəziyyətin daha da pisləşməsinin qarşısını ala bilmək üçün ciddi məhkəmədənkənar, qısa və ya özbaşına edam hallarına cəlb etmək üçün təxirəsalınmaz tədbirlər həyata keçirmək;

♦BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının diqqətini vəziyyətinin pisləşməsinə və təcili tədbirlərin görülməli olmasının vacibliyinə cəlb etməyə dəvət etmək;

♦Xüsusilə məhkəmədənkənar, ya özbaşına edamın qaçılmaz olduğu və ya təhlükə altında olduğu və ya belə bir edam baş verdiyi zaman qarşısına çıxan məlumatlara effektiv şəkildə reaksiya vermək;

♦Hökumətlərlə dialoqunu daha da gücləndirtmək, eləcə də müəyyən ölkələrə səfərlərdən sonra hesabatlarda verilən tövsiyələri izləmək;

♦İnsan Hüquqları Komitəsinin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsinin, eləcə də ona dair İkinci Fakultativ Protokolun müddəalarını nəzərə alaraq, ölüm cəzasının tətbiqi ilə bağlı təminatlar və məhdudiyyətlər üzrə mövcud beynəlxalq standartların tətbiqini izləməyə davam etmək;

---

[10] https://www.ohchr.org/en/special-procedures/sr-executions

♦Fəaliyyətində gender perspektivini tətbiq etmək.

***Mandatını yerinə yetirərkən Xüsusi Məruzəçi:***

♦Məhkəmədənkənar, və ya özbaşına edamlar riski altında olduğu bildirilən şəxslərlə bağlı hökumətlərə və digər subyektlərə təcili müraciətlər edir;

♦Müvafiq ölkələrdə məhkəmədənkənar, qısa və ya özbaşına edamların vəziyyətini araşdırmaq və yaşamaq hüququnun təmin edilməsi ilə bağlı hökumətə və digər subyektlərə tövsiyələr hazırlamaq üçün ölkəyə səfərlər edir;

♦Mandatın fəaliyyəti və məhkəmədənkənar, və ya özbaşına edamlarla bağlı dünya miqyasındakı vəziyyət barədə **İnsan Hüquqları Şurasına** və **Baş Assambleyaya** illik tematik hesabatlar və bu fenomenlə mübarizə aparmaq üçün daha effektiv tədbirlər üçün tövsiyələr təqdim edir.

**Qeyd:** Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 2025-ci ilin sonuna qədər 29 kütləvi məzar yeri müəyyən edilmişdir. Həmin məzar yerlərində əsir və girov götürülmüş hərbiçilərin və mülki şəxslərin, o cümlədən uşaqların, qadınların və ahıl insanların qalıqları müəyyən edilmişdir. Həmin şəxslərin hamısı Ermənistan tərəfindən məhkəmdənkənar cəzaya məruz qalaraq qətlə yetirilmişdir.

## Minnesota Protokolu

Beynəlxalq hüququn prinsiplərinə görə məhkəmədənkənar cəza verilməsi yolu ilə qətlə yetirilənlərlə bağlı təhqiqat 1) **operativ**, 2) **effektiv** və **hərtərəfli** 3) **müstəqil** və **qərəzsiz** 4) **şəffaf** şəkildə həyata keçirilməlidir. Prosesə aidiyyatı olan beynəlxalq qurumların mütəxəssisləri cəlb edilməlidir.

BMT İqtisadi və Sosial Şurasının (ECOSOC)1989/65 saylı qətnaməsi əsasında tövsiyə olunmuş və 2016-cı ildə Minnesota Protokolu[11] ilə yenidən baxılmış "*Qanunsuz, özbaşına və kütləvi cəzaların effektiv təhqiqatı və qarşısının alınması haqqında Prinsiplər*"in tələbinə görə kütləvi məzar yerləri müəyyən olunarkən protokolla müəyyən edilən bütün qaydalara əməl edilməlidir.

**Kütləvi məzar yerləri ilə bağlı milli çərçivələrdə aparılan işlərin beynəlxalq səviyyədə tanınması və belə kütləvi məzar yerlərinin beynəlxalq kataloqlara salınması üçün Minnesota Protokolunun tələblərinə əməl edilməsi vacib şərtdir.Bu baxımdan kütləvi dəfn yerləri aşkar edilərkən Minnesota protokolunun IV bölməsində əks olunan prinsiplərə və qaydalara[12] əməl olunmalıdır.**

## Xüsusi Məruzəçiyə məlumat göndərmək üçün əlaqə vasitələri:

**Special Rapporteur on extrajudicial, summary or arbitrary executions**
**OHCHR-UNOG**
**8-14 Avenue de la Paix**
**1211 Geneve 10**
**Switzerland**
**Email: hrc-sr-eje@un.org**

[11] https://www.ohchr.org/sites/default/files/Documents/Publications/MinnesotaProtocol.pdf
[12] https://www.ohchr.org/sites/default/files/Documents/Publications/MinnesotaProtocol.pdf

## 6. Din və ya etiqad azadlığı üzrə xüsusi məruzəçi (Special Rapporteur on freedom of religion or belief)

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyasının 1986/20 saylı qətnaməsi ilə təsis olunmuşdur. İlk adı "Dini dözümsüzlük üzrə Xüsusi Məruzəçi"  adlanırdı. İnsan Hüquqları Komissiyası 2000-ci ildə mandatın adının **"Din və ya etiqad azadlığı üzrə Xüsusi Məruzəçi"** olaraq dəyişdirilməsi ilə bağlı qərar qəbul etmişdir. BMT İqtisadi və Sosial Şurasının (ECOSOC) 2000/261 saylı qərarı ilə Komissiyanın qərarı təsdiq edilmişdir.  31 mart 2022-ci ildə **İnsan Hüquqları Şurası** Xüsusi Məruzəçinin mandatının daha üç il müddətinə uzadılmasını nəzərdə tutan A/HRC/RES/49/5 saylı qətnaməni qəbul etmişdir.

**"Din və ya etiqad azadlığı üzrə Xüsusi Məruzəçi"**[13] aşağıdakı mandata malikdir. Mandat İnsan Hüquqları Şurasının 6/37 saylı qətnaməsi ilə müəyyən edilib.

♦Din və ya etiqad azadlığı hüququnun təşviqi və qorunmasını təmin etmək üçün milli, regional və beynəlxalq səviyyələrdə tədbirlərin görülməsin təşviq etmək;

♦Din və ya etiqad azadlığı hüququndan istifadəyə qarşı mövcud və yaranan maneələri müəyyən etmək və bu maneələri aradan qaldırmaq üçün yollar və vasitələr barədə tövsiyələr vermək;

♦**Din və ya etiqad əsasında bütün dözümsüzlük və ayrı-seçkiliyin aradan qaldırılması haqqında Bəyannamənin**[14] müddəaları ilə uyğun olmayan hadisələri və hökumət hərəkətlərini araşdırmaq və lazım olduqda düzəliş tədbirləri tövsiyə etmək üçün səylərini davam etdirmək;

♦Məlumat toplama və tövsiyələr daxil olmaqla, hesabat prosesində genderə xas sui-istifadə hallarının müəyyən edilməsi yolu ilə gender perspektivini tətbiq etməyə davam etmək.

### *Xüsusi Məruzəçi mandatını yerinə yetirərkən:*

♦Din və etiqad azadlığı hüququnun pozulması və ya həyata keçirilməsinə mane olan hallarla bağlı **dövlətlərə məlumat ötürür**;

♦Faktaraşdırıcı **ölkə səfərləri** həyata keçirir, səfərlərin hesabatını hazırlayır və təqdim edir;

♦**İnsan Hüquqları Şurasına** və **Baş Assambleyaya** fəaliyyətlər, məsələlərin istiqamətləri və iş metodları barədə **illik hesabatlar** təqdim edir.

**Qeyd:** Ermənistan hökuməti, Ermənistan QHT-ləri, erməni lobbisinin təsiri ltında olan və ya əməkdaşlıq edən beynəlxalq QHT-lər Xüsusi Məruzəçiyə Azərbaycanla bağlı olan saxta məlumatlar təqdim edir. Saxta məlumatlar (hesabatlar) Azərbaycan tərəfindən erməni-xristian kilsələrinin guya dağıdılması və ya başqa dinlərə aid olan kilsələr kimi təqdim olunmasına həsr olunur.

---

[13] https://www.ohchr.org/en/specialprocedures/sr-climate-change

[14] https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/declaration-elimination-all-forms-intolerance-and-discrimination

## Xüsusi Məruzəçiyə məlumatları aşağıdakı e-mail vasitəsi ilə göndərmək olar:

hrc-sr-freedomofreligion@un.org

## 7.İqlim Dəyişikliyi üzrə Xüsusi Məruzəçi (Special Rapporteur on Climate Change)

**İqlim dəyişikliyi kontekstində insan hüquqlarının təşviqi və qorunması üzrə Xüsusi Məruzəçinin** mandatı BMT İnsan Hüquqları Şurası tərəfindən 2021-ci ilin oktyabr ayında keçirilən 48-ci sessiyasında müəyyən edilmişdir (RES/48/14). Mandat 2024-cü ilin oktyabr ayında İnsan Hüquqları Şurası tərəfindən üç il müddətinə uzadılmışdır (RES/57/31).

**İqlim Dəyişikliyi üzrə Xüsusi Məruzəçinin**[15] mandatına aşağıdakılar daxildir:

♦Qəfil və ləng baş verən fəlakətlər də daxil olmaqla, iqlim dəyişikliyinin insan hüquqlarının effektiv həyata keçirməsinə mənfi təsirlərinin öyrənmək və müəyyən etmək;

♦İqlim dəyişikliyinin mənfi təsirlərini aradan qaldırmaqla yanaşı, dövlətlərin insan hüquqlarını təşviq etmək və qorumaq səylərində mövcud çətinlikləri, o cümlədən maliyyə çətinlikləri müəyyən etmək və insan hüquqlarına hörmət və təşviqlə bağlı tövsiyələr vermək;

♦Yerli və ənənəvi biliklər də daxil olmaqla, bilikləri sintez etmək və insan hüquqlarının iqlim dəyişikliyi siyasətlərinə necə inteqrasiya olunduğunu və bu səylərin bütün insan hüquqlarının təşviqi və qorunmasına və yoxsulluğun azaldılmasına necə töhfə verdiyini əhatə edən yaxşı təcrübələri, strategiyaları və siyasətləri müəyyən etmək;

♦İqlim dəyişikliyinə uyğunlaşma və təsirlərin azaldılması siyasətlərinə insan hüquqlarına əsaslanan, genderə həssas, yaşa həssas, əlilliyi əhatə edən və risklərə əsaslanan yanaşmaların qəbul edilməsi ilə bağlı öyrənilmiş dərslər və ən yaxşı təcrübələr barədə fikir mübadiləsi aparmaq və təşviq etmək;

♦**İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının** həyata keçirilməsinə töhfə vermək məqsədilə Davamlı İnkişaf Məqsədlərinin, xüsusən də 13 və 14-cü Məqsədlərin həyata keçirilməsinə, iqlim dəyişikliyinin yaratdığı iqtisadi, mədəni, ekoloji və sosial problemlərin həllinə və xüsusilə də həssas vəziyyətlərdə olan insanların iqlim dəyişikliyinin mənfi təsirlərinə məruz qalmasının qarşısının alınmasına yönələn tövsiyələr vermək;

♦Mandat çərçivəsində genderə həssas, yaşa həssas, əlilliyə inteqrasiya və sosial inteqrasiya perspektivini inteqrasiya etmək;
İqlim dəyişikliyi kontekstində investisiya layihələri də daxil olmaqla, fəaliyyətlərinin insan hüquqlarına potensial mənfi təsirlərini azaltmaq üçün **Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərə**[16] uyğun olaraq insan hüquqları perspektivini qəbul etmək üçün dövlətlər və müvafiq maraqlı tərəflər, o cümlədən həm transmilli, həm də digər biznes müəssisələri ilə sıx əməkdaşlıq etmək.

---

[15] https://www.ohchr.org/en/specialprocedures/sr-climate-change
[16] https://www.ohchr.org/sites/default/files/documents/publications/guidingprinciplesbusinesshr_en.pdf

**Xüsusi Məruzəçiyə məlumatları aşağıdakı e-mail vasitəsi ilə göndərmək olar:**
**hrc-sr-climatechange@un.org**

---

**Bu yaddaşda BMT İnsan Hüquqları Şurasının hazırda fəaliyyətdə olan 46 tematik prosedurlarından yeddisi haqqında icmal təqdim edildi. Bunlar Azərbaycan QHT-lərinin maraqlandıran əsas prosedurlardır.**

**Bütün prosedurlara dair geniş məlumatları BMT İnsan Hüquqları Üzrə Ali Komissar ofisinin rəsmi veb səhifəsindən əldə edə bilərsiz:**

**https://spinternet.ohchr.org/ViewAllCountryMandates.aspx?Type=TM**

**Tərtib etdi: Sahib Məmmədov**